

# "ZAMANI DUELƏ ÇAĞIRIRAM MƏN..."

Barat Vüsal

O da ölümü görmüşdü...

Doğmaların ölümünə yas saxlayanda yox, "vaxtsız ölən günləri"ni ağlayanda.

O da bəlkə neçə dəfə "çırpıb bu dünyanın qapılarını, küsüb birdəfəlik getmək" istəmişdi.

Amma bu cür çıxıb getməyi kişilikdən saymamışdı, qeyrətinə sığışdırmamışdı.

Ona görə də mərd-mərdanə hərəkət etməyi qərara almışdı.

Zamanı duelə çağırmışdı.

Zamanı duelə çağıranda görəsən yaxşı-yaxşı fikirləşmişdimi Nüsrət Kəsəmənli?!

Bəlkə bu fikrə düşməkdə yaxşı-yaxşı fikirləşməyə vaxtı olmamışdı heç?!

...Sizə bir şairdən yazacağam.

O şairdən ki, özü köçüb getsə də, yerində "Nüsrət Kəsəmənli imzası qalıb".

O şairdən ki, ömrü boyu doğmalar içində qəribsəyib, qəribləri görəndə elə bilib ki, doğmalarını görüb.

**Həmişə sonuncu sıralardakı
özünü birinci sırada görüb,
Anasını tapıb ana dilində,
Dözümü özünə ata bilibdir.
Taleyin cilovu qalıb əlində,
Həmişə cilovsuz ata minibdir.**

Özünü birinci sırada görmək, birinci sırada olmaq əslində qəhrəmanlıqdır. Düşmən yurda soxulanda döyüşə birinci atılmaq kimi!

Müəllim dərs soruşanda əlini birinci qaldırmaq kimi!

Yıxılanın qolundan birinci yapışmaq kimi!

...Uşaqlıqdan mən də birinci olmağı sevərdim. Dərsə hamıdan qabaq getməyə çalışardım. Birinci sırada oturardım. Dərsdə birinci əl qaldırardım.

Müəllim bilərdi ki, ikinci çağırsa, mən dərsi danışmayacağam.

Şair Nüsrət Kəsəmənlinin poeziyası ilə bütövlükdə tanış olan oxucu o saat görə bilər ki, "hər nə qazanıbsa qazanıb özü".

Çoxlarının varlığında bir yoxluq var, N.Kəsəmənlinin yoxluğu da varlıqdır. Bu "yoxluq" içində şair bizim özümüzü itirdiyimizi görüb, o dəqiqə dabanı üstə geri qayıdır, boy göstərir, yenə də lətif, yapışıqlı səsiylə şer oxuyur:

**Gah var olur, gah yox olur
Gah yox olur, gah var olur.
Yenə nağıl danışır, nədi?!**

Deyir:

**Olan olub, keçən keçib bəlkə də,
İndi daha kövrəlməyin yeri yox.
Ömrüm boyu belə gəlib mənimki,
Əvvəlindən biri vardı, biri yox.**

Hazırcavab oxuculardan biri özünü saxlaya bilmir, az qala hönkürə-hönkürə səslənir:

**Çapıb öz atını Ağatlı getdi,
Atları şimşəkdən qanadlı getdi.
...Yaxşı adamlar da bir nağıl idi,
Daha nağıllara inanmıram mən!**

"Dünyada əbədi nə qalır görən" deyən şairimizin biri də əbədiyyətdən boylanır indi bizə...

Yuxuda Ağatın belinə minən öz ölümünü görür, deyirlər. Bəs həqiqətdə, həyatda Ağatın belində gəzir?! Darda qalanların hayına Ağatın belində çatır!?

Ağatın belinə qalxmaq ölümünü görməyə bərabərdirsə onda bəs niyə Xızır Ağatın belində gəzir?!

Ağat ölüm rəmzidirsə? bəs onda çapıb öz atını Ağatlılar haraya getdilər?! Özü də yaxşı kişilər minmişdilər həmin atları.

Yox? demək Ağatın varlığındakı ölüm rəmzi əslində ölməzlik simvoludu, əbədiyyət nişanıdı.

Elə Ağatın belinə ölüb ölməyənlər minirlər...

Əbədiyyət hüququ qazananlar minirlər.

Çiçəyin çox yaşadığını kim görüb ki? Gülün çox yaşadığını kim görüb ki, şairin, yaxşı adamın da çox yaşadığını görə?!

Gültekin abidələri yarananda daşların da yəqin ki, şair olan vaxtlarıymış. İnsan daşla, daş insanla lazımi səviyyədə bir-biriylə dil tapıblarmış.

Gültekin o yazıları daşlara köçürəndə çox cavanmış - heç bir qərinə yaşamayıbmış. Bəlkə o yazıların xatirinə qalan ömrünü də daşlara bağışlayıbmış , kim bilir! Daşın ömrünü daşdan evlər tikəndə, saraylar ucalanda, heykəllər yonanda da uzatmışıq bəlkə?! Unutmuşuq ki:

**Daşa ömür verib yaşadan insan,
Adi bir daş qədər yaşaya bilmir!**

Nüsrət Kəsəmənli kənddən üz tutub şəhərə gələndə ağlına gəlməzdi ki, nə vaxtsa zamanla duelə çıxmaq fikrinə düşəcək. Halbuki, o şəhərə "Vaqonlarda sıxıla-sıxıla" gəlmişdi. Şəhərə üz tutub gələndə şair ürəyini götürüb gəlmişdi. Uğruna yaxşı adamların çıxacağına inanırdı. Deyirdi:

**Sizə güvəndiyim yaxşı adamlar,
Mənim bu şəhərdə kimim var axı?**

...Belə rəvayət edirlər ki, Qaçaq Kərəmin qan düşməni İsrafil ağanın oğlunun Bakıda bir dəfə qapısı nagəhan döyülür. Açır. Qapıda duran adamı tanımır. Həmin adam dara düşübmüş. Deyir:

-Mən qapının üstdəki Kərbəlayev familiyasını oxuyub döydüm qapını. Yəqin etdim ki, siz İsrafil ağa Kərbəlayevin



yaxın qohumusunuz?

-Oğluyam.

-Onda mümkünsə mənə yardım edin. Mən o kişinin adını tutub bura pənah gətirmişəm.

Və o kişiyə lazımınca yardım edilib. Nüsrət isə "sizin adınıza gəlmişəm bura" dediklərindən bir xoş üz görmədi.

**Qapı gözlüyündən baxıb,
qapıya çıxmadı qohumlar,
Əlimi sıxmadı qohumlar.**

Allah belə qohumlara insaf versin. Onların xəbəri yoxdu ki, Nüsrətin "gülərüzlü bir tale düşmüşdü qabağına".

N.Kəsəmənlini Bakıda qohumları yaxşı qarşılamadılar. Birisi vəziyyətinə görə, o birisi öz xasiyyətinə görə, bir başqası nəyə görəsə...

Ancaq Nüsrəti Bakıya taleyi gətirdi. Onu Bakıda məhəbbəti qarşıladı!

Bəlkə ona görə də məhəbbət şairi oldu?!

Nüsrət Bakıya çatdığı səhər "şeh düşmüşdü günəşə" hər şehdə bir günəş yanırdı, nəmliydi Günəş!

Kimə desən ki, nəmli Günəş görmüsənmi?!

Gülər sənə, fikirləşə bilər ki, bu yazıq dəli olmayıb ki?!

Ancaq sən demə, nəmli günəş doğurdan da varmış. Belə olduğu üçün də hamı şair ola bilmir. Poeziya məhz belə anlarda doğulur, yaranır.

Poeziya elə hamının görə bilmədiyi həmin nəmli Günəşdir!

Nüsrət Kəsəmənli bəlkə də belə şöhrətli, qüdrətli şair olmayacaqdı, o nəmli Günəşi görməsəydi. Deməsəydi:

**Sil dünyanın
dovşan kimi boz,
yovşan kimi
cılız mənzərəsini,
Baharı şağır gözlərimizə...**

Və onda dünyada ilk dəfəydi ki, bahar dünyaya təkcə qaranquşun, durnanın qanadında yox, həm də şair gözlərində gəlirdi...

Nüsrət hər şeir oxuyanda onu necə sevirdilər, şeri necə sevirdilər!

Baharı necə sevirdilər!

Nüsrət yazır, Nüsrət yaradırdı. Başqalarından tamam fərqli yaşaya-yaşaya baharı gözlərinə çağıra-çağıra, "küçəyə açılan qapı" ola-ola, "küçə çıraqları" kimi yana-yana.

**"Dərib... çiçəkləri
...Təbrizə-
Azərbaycan məktəbinin açılışına" apara-apara...**

...Nüsrət şəhərə gələndən "şəhərdə bahar" başlamışdı. "Cəngi" havasına köklənmişdi ürəyi, qələmi, ilhamı. Bilirdi ki,

**"Cəngi" çalındımı, cəngi dindimi,
Qaldırıb çiyninə məzar daşını,
Ölənlər təzədən qayıdar geri.**

Nüsrət şeir oxuyurdu... Nüsrətin şerlərini oxuyurdular. Ona həsəd aparanlar az deyildi. Belə anlarda heç nə olmamış kimi guya heç bir ağrısıacısı olmadığını ağrıynan, acıqnan belə çatdırırdı oxucusuna:

**"Baxın, qanadım çıxıb, qanadım"** -deyirdi.

Nüsrətin poeziyası ilə tanış olursan, görürsən ki, kədər təkcə kimisə yıxmayırmış. Sən demə kədərin özü də yıxılırmış. Ağlamaq istəyirsən o kədərin halına. Amma unudursan ki:

**Gözlərinə yıxılan kədəri
Bir damla yaş qaldıra bilməz.**

Nüsrətin sevgisi etirafdır, etirafı sevgi. Bu poeziya onun yaşadığı ömürdür, günəşdir. Təəssüf ki, bu günləri saymamışam, hesablamamışam. Ulduzları saymaq mümkündür ki?!

Onun bir "Ağrı" şeri var. Oxuyursan, sanırsan ki, bir ürəyin ağrısından söhbət açılacaq yəqin. Amma baxıb görürsən ki:

**Hələ də ağrıyır
Nənəmin ağısı.**

N.Kəsəmənlinin son illərdə yazdığı şerləri oxuduqca adama elə gəlir ki, şair hər gün elə bil ölümlə oturub dururmuş. Yoxsa heç vaxt belə yaza bilməzdi: "Sırada olduğumu bilirəm".

**Məndən öndəkini
gülləylə vurdular,
Arxamdakını infarkt vurdu:
Beləcə yaxşılardan
Təmizləyirlər bu yurdu.
Sırada olduğumu bilirəm.**

Şair bu dünyanın işlərinə yaxşı bələddi. Bilirdi ki, bu dünyada boş-boşuna yaşayıb sağlıq deyənlər hər gün özlərini öldürməklə məşğuldurlar.

Şairin ən çox bu ölülərə yox, bəşərin olmayan yaxasından tutmaq istəyən əllərinə yazığı gəlirdi.

"Əllərimə yazığım gəlir" deməyə haqqı vardı.

Kimin üçünsə əldəki xətlər adicə bir şeydir. Şair üçünsə belə deyil.

**Əlimdəki tale xətləri
arzularımın sinə dağlarına
bənzəyir...
Əllərimə yazığım gəlir!:**

Arzuların da sinə dağı olarmı?

Bunu bizə N.Kəsəmənli dedi.

N.Kəsəmənlini gərəyincə tanıdılarmı? Gördülərmi? Bəlkə də hə, bəlkə də yox! Onu nə cür görüb tanıdığımızı özü bir şerində çox gözəl verib:

**Məni görmək üçün
yerdəkilər göyə,
göydəkilər yerə baxır...**

N. Kəsəmənli həyatın da, ölümün də yollarını yaxşı bilirdi, yaxşı tanıyırdı. Nüsrət həyata ölümün yollarıyla gəlmişdi.

Nüsrət ölümə həyatın yollarıyla getdi.

**P.S.** Zamanla duelə çıxmağa şairin zamanı çatmadı. Amma bu duel hər vaxt gözlənilir. Hər vaxt ola bilər. Bu dəfə şairin özüylə yox, sözüylə duelə çıxmalı olacaq Zaman!

Bu dəfə gərək zaman yaxşı-yaxşı fikirləşsin...

...Bu dünyada yaşamağa dəyərmi ki?! Bir halda ki, "Dünya özü boyda külqabı"-dı?!